## MAHİRƏ HÜSEYNOVA HAQQINDA GÖRKƏMLİ ADAMLARIN SÖYLƏDİKLƏRİ

Poeziya, insanın daxili dünyasının pəncərəsindən həyata baxışıdır və Mahirə Nağıqızının poeziyasında əks olunan həmin dünya rəngarəngliyi ilə o qədər kaloritlidir ki, buna heyrətlənməyə bilmirsən, möhtəşəm həqiqətlərin, əslində, sadə, çox sadə konstruksiyasının yaratdığı təəccüblə baş-başa qalırsan. Heyrətin yaratdığı assosiasiya ilə insanın dünyanı dərk etdiyi andan baş qaldıran sualların cavabını tamam özgə formada və məzmunda alır, özün də bilmədən təhtəlşüurun diqtə etdiyi həqiqətlərin təqdimatındakı mənzərənin tərkib hissəsinə çevrilirsən. Bu, Mahirə Nağıqızının daşlaşan həqiqətlər barədə "Onun daş nağılı"nın məndə yaratdığı təəssürrat oldu.

***

Zəngin ənənələri olan Azərbaycan poeziyasının bütün zamanlarda qadın şairləri olubdur və indən belə də olacağına şübhə etmirik. Məhsəti xanım Gəncəvidən üzü bu tərəfə adı çəkilən, imzaları görünən o qadın şairlər arasında Mahirə Nağıqızının adının ayrıca yeri olacağına isə Ön Söz yazdığımız "Onun daş nağılı" kitabındakı şeirləri oxuyandan sonra əmin olduq.

***Möhsün Nağısoy,***
***AMEA-nın müxbir üzvü, professor***

Müstəqillik illərində sənətin zamanla səsləşməsinə təkan verən şairlərdən biri də Mahirə Nağıqızıdır. Sözün geniş mənasında, çağdaş ədəbi prosesə Mahirə Nağıqızı 2000-ci illərdə qoşulur, əsrin ikinci onilliyi isə şeirlərində işlətdiyi "Mahirə" və "Nağıqızı" təxəllüslərinin özünütəsdiqi ilə yadda qalır.

***Təyyar Salamoğlu,***
***ədəbiyyatşünas, tənqidçi, professor***

Ədəbiyyatımızda tarix boyu ana, vətən kimi müqəddəs mövzularda bir-birindən gözəl və dəyərli əsərlər – poeziya, nəsr və dramaturgiya nümunələri yaranıb, yaranmaqdadır. Lakin hələ indiyə qədər heç bir dramaturq, nasir, hətta publisist belə bütün yaradıcılığını bu mövzuya həsr etməmişdir. Bu təşəbbüsdə birincilik  Mahirə Nağıqızının bəxtinə düşmüşdür.

***Şöhrət Səlimbəyli,***
***yazıçı-publisist, ədəbiyyatşünas***

Geniş yaradıcılıq erudisiyası, zəngin və əhatəli nəzəri təfəkkürü ilə fərqlənən Mahirə Hüseynova orjinal dəst-xətti olan bədii söz ustası, filologiyamızın köklü və aktual problemlərini həvəslə öyrənən tədqiqatçı kimi Azərbaycan dilçilik elminin inkişafına təmənnasız xidmətin canlı nümunəsidir.

***Məhərrəm Hüseynov,***
***filologiya üzrə fəlsəfə doktoru, professor***

Mahirə Nağıqızının yaradıcılığı mövzu məhdudiyyəti tanımır. Forma rəngarəngliyi və ideya-məzmun çalarları ilə zəngin olan bu poeziyada gözəllik ilə ülviyyətin, sevgi ilə məhəbbətin, vətənpərvərlik ilə qəhrəmanlığın vəhdəti, tərənnüm və paralelliyi həm diqqəti cəlb edir, insanı əbədiyaşar ideallarla baş-başa saxlayır, həm də oxucunu sirli dünyanın ağuşuna ataraq düşündürür:

Salma məni bu sualın bərkinə
Hər cavabın içində sirr görünür.
Ömür atı alıb gedər tərkinə,
Gəlib keçən ordan bir-bir görünür.

***Elman Quliyev,***
***ADPU-nun professoru***

XXI əsr Azərbaycan elmi və təhsili tarixində özünəməxsus yer tutan böyük alim, professor Mahirə Hüseynova bütün fəaliyyətini, yaradıcılığını mədəniyyətimizin, ədəbiyyatımızın, təhsilimizin inkişafına sərf edən dəyərli ziyalılarımızdandır. Mahirə Hüseynovanın mühüm həyati problemlər qaldıran, vacib ictimai-siyasi və mənəvi-əxlaqi məsələləri əks etdirən tədqiqatlarında əsas tədqiq və inikas obyekti insan, onun mənəvi dünyasıdır. Xalqımızın gözəl, zəngin mənəvi dəyərlərinin təbliği görkəmli alimin yaradıcılığında mühüm yer tutur. Onun məqalələri, araşdırmaları və monoqrafiyaları həm mövzu zənginliyinə, həm də dil və üslubuna görə böyük maraq doğurur. Dərin zəka sahibi olan Mahirə Hüseynova həm görkəmli alim, pedaqoq, həm də böyük ictimai xadim kimi tanınmaqdadır.

***Məlahət Babayeva,***
***filologiya üzrə fəlsəfə doktoru***

Artıq Mahirə Nağıqızı ədəbiyyatda və elmdə öz sözünü demiş və bir-birindən maraqlı əsərləri ilə ədəbi-mədəni prosesə öz möhürünü vurmuş simalardandır. Bir-birindən orjinal əsərləri, xalq ruhuna köklənən bayatı və qoşmaları dil zənginliyi, ifadə fenomenliyi, misranın fikir tutumu baxımından mükəmməldi.

***Simuzər Əliyeva,***
***filologiya üzrə fəlsəfə doktoru***

Mahirə Nağıqızının şeirlərinin bədii dili üzərində apardığımız tədqiqat onu deməyə əsas verir ki, sinonimlərin müəyyən qismi poetik nitqə məqsədyönlü daxil edilmiş, digər bir qismi isə şairlik ilhamının təzahürüdür. Hər iki halda sinonimlər müəllifin poetik nitqni canlı, axıcı və yadda qalan edir, şeirdəki məzmun və forma gözəlliyini qovuşuq şəkildə şəkilləndirir.

***Bəhram Cəfəroğlu,***
***filologiya üzrə fəlsəfə doktoru***

Mahirə Nağıqızı poeziyası həqiqətlə, haqq-ədalətlə, vətən sevgisi ilə, saf məhəbbətlə naxışlanmış poeziyadır. Şair sevgi və səmimiyyəti poeziya yaraşığı kimi təqdim etməklə mükəmməl fikirlər və hisslər çələngi yaratmağa nail olub.

***İsgəndər Səklikov,***
***Əməkdar müəllim, Azərbaycan Yazıçılar Birliyinin üzvü***

Yaradıcılığı ilə bütöv halda tanışlıqdan sonra bu qənaətə gəldim ki, Mahirə Nağıqızı özü də bir şeirdir: Anasının yazdığı şeir. Və anası yazan şeirin hər misrasında xalq ruhu, xalq poeziyası boy göstərir. Təsadüfi deyil ki, müəllifin şeir kitablarının əksəriyyətində ana obrazı ad mərtəbəsinə yüksəlib: "Mənim anam" (2006), "Su at dalımca, ana" (2006), "Ana sevgisindən doğan nəğmələr" (2008), "Yaşadacaq anam məni" (2009), "Ana kəndim Xalxalım" (2010), "Analı dünyam" (2015).

***Elxan Yurdoğlu***
***filologiya üzrə fəlsəfə doktoru, dosent, şair-publisist***

M. Nağıqızının yaradıcılığı geniş və çoxşaxəlidir. Onlarla fundamental elmi əsərin müəllifi olmaqla yanaşı, həm də elə bir o qədər də şeir kitabının müəllifi olan şairənin yaradıcılığında ana obrazı qabarıq şəkildə diqqəti cəlb edir. Onun yaradıcılığında Vətən, Ana obrazını bir-biri ilə müqayisə etmək qeyri-mümkündür. Anaya həsr olunmuş şeirlərini oxuyanda gözlərimiz qarşısında Vətən, Vətənə aid şeirlərini oxuyanda isə ana canlanır.

***Sərdar Zeynal,***
***ADPU-nun Müasir Azərbaycan dili kafedrasının professoru***

İnsanların həyatına, ömür yoluna nəzər salanda bəzən adama elə gəlir ki, sanki hamı eyni bir ömrü yaşayır. Sanki adamlar bir-birinin yaşamını təkrarlayır. Amma elə insanlar var ki, onların ömrü nəsillərin həyatında bənzərsiz bir təcrübə, əvəzsiz bir nümunə olur – insanlıq, fədakarlıq, saflıq, səmimilik və ləyaqət nümunəsi… Mahirə xanım Nağıqızı məhz o insanlardandır…

***

Bu günün pəncərəsindən baxanda – azadlığın, bütövlüyün verdiyi qürur hissi ilə Mahirə xanımın yaşadıqlarını kitab kimi vərəqlədikcə bu şərəfli ömür yolunun biz gənclər üçün və bütövlükdə cəmiyyətimiz üçün dəyərli nümunə olduğunun şahidi oluruq – vicdan, ləyaqət, dürüstlük, saflıq, sadəlik, səmimilik, təvazökarlıq, ziyalılıq, müdriklik və ən əsası İNSANLIQ nümunəsi…

***

Həqiqətləri deyən diliniz, yaxşılıqlara ünvan olan ürəyiniz, işıqlı əməllər üçün yorulmadan çalışan əlləriniz var olsun, dəyərli Mahirə xanım! Ulu Tanrı Sizin işığınızı bütün Türk dünyasına doyunca versin!

***Xəyalə Zərrabqızı,***
***filologiya üzrə fəlsəfə doktoru***

Mahirə xanım gözəl pedaqoq və tanınmış ictimai xadim olmaqla yanaşı, həm də görkəmli alim, məhsuldar şairə kimi müasir Azərbaycan filologiya elmində və poeziyasında ən tanınmış imzalardan biridir. Haqqında həmişə xoş sözlər deyilən, hər zaman xeyirxah və nəcib insan kimi təqdim olunan, əsərlərinin elmi-fəlsəfi yükü ilə fərqlənən, tələbələri və pedaqoq həmkarları tərəfindən adı böyük rəğbətlə çəkilən Azərbaycan xanımıdır.

***Gülşən Behbud,***
***Milli Dəyərlər üzrə Maarifləndirmə İctimai Birliyinin sədri***

Kimdir Mahirə Nağıqızı? Bu suala onun şeirləri, yaradıcılığı haqqında yazılan, monoqrafiya səviyyəsində olan məqalələr, araşdırmalar birmənalı olaraq cavab verər: O, haqqında həmişə xoş sözlər deyilən, müqəddəs varlıq kimi təqdim olunan, əsərlərinin elmi-fəlsəfi yükü ilə fərqlənən, tələbələri və pedaqoq həmkarları tərəfindən adı rəğbətlə səslənən Azərbaycan xanımı, şairi, alimi, vətəndaşı...

***Faiq Balabəyli,***
***şair***

Filologiya elmləri doktoru, professor Mahirə Nağıqızının şeir yaradıcılığı mövzu genişliyi və rəngarəngliyi ilə diqqəti cəlb edir. Monoqrafiyalar, dərs vəsaitləri və metodik vəsaitlərin müəllifi olan Mahirə xanımın kövrək, duyğulu anlarında qələmə aldığı şeirləri Vətənə, insana, təbiətə, sevincə və kədərə özünəməxsus yanaşmalarla seçilir.

**Razim Məmmədov,**
***filologiya üzrə fəlsəfə doktoru, dossent***